# Söz ilə əməlin vəhdəti

## Korrupsiyaya qarşı mübarizə real hədəfdir və prinsipial xarakter daşıyır



*Nurlan*

Hər bir dövlətin milli gücünü müəyyən edən mühüm amillərdən biri milli maraqlara və müasir çağırışlara müvafiq strateji kursun həyata keçirilməsidir. Təbii ki, burada çevik və səmərəli idarəetmə sisteminin formalaşdırılması xüsusi yer tutur. Çünki həm islahatların davamlılığının təmin olunması, həm də neqativ hallara qarşı təsirli mübarizə mexanizminin yaradılması üçün idarəetmənin effektivliyinə nail olmaq gərəkdir. Bu baxımdan, Azərbaycan təcrübəsi mütərəqqi nümunə kimi dəyərləndirilə bilər. O mənada ki, ölkədə həm müxtəlif sahələri əhatə edən kompleks reformalar həyata keçirilir, həm də korrupsiya, rüşvətxorluq kimi ictimai sistemi zədələyən sosial bəlaya qarşı ciddi mübarizə aparılır.

**Güclü siyasi iradə - barışmaz mövqe**

Ümumiyyətlə, korrupsiyaya qarşı mübarizə dövlətin ictimai-sosial və mənəvi-siyasi dayaqlarının möhkəmləndirilməsi baxımından böyük önəm daşıyır. İnsan faktoru ilə əlaqədar olan rüşvətxorluq, korrupsiya kimi mənfi hallar bütün cəmiyyətlərdə hökm sürür. Burada vacib strateji məqam bu problemə qarşı mübarizədə siyasi iradənin sərgilənməsidir - barışmaz mövqeyin ortaya qoyulmasıdır. Azərbaycanda korrupsiyaya qarşı mübarizə sistemli islahatlar strategiyasının tərkib hissəsidir və davamlı xarakter daşıyır. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı qeyd edib ki, son illər ərzində göstərdiyimiz qətiyyət və sözlə əməl arasında olan vəhdət, hesab edirəm ki, hər kəs üçün dərs olmalıdır. **"Çünki mən dəfələrlə dövlət məmurlarına həm rəsmi qaydada, həm də görüşlər zamanı, onları vəzifəyə təyin edərkən təlimat verirdim ki, korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalıdır və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq. Nəticə də onu göstərir - ən yüksəkvəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar"**, - deyən dövlət başçısı heç kimin bu məsuliyyətdən boyun qaçıra bilməyəcəyini, heç kimin qanundan üstün olmadığını, qanun qarşısında hamının bərabər olduğunu, heç kimin əvvəlki xidmətlərinin nəzərə alınmayacağını söyləyib: **"Xüsusilə bu əyri yola gedən insanların xidmətləri daha çox "ayı xidməti"nə bənzəyir. Ona görə hesab edirəm ki, bunu hər kəs artıq görüb və bilib. Ona görə bizim addımlarımız çox sərt olacaq, cəzalarımız da çox sərt olacaq".**

**Kadr islahatları - yeni çağırışlar və konkret tələblər**

Neqativ hallara qarşı mübarizədə, şübhəsiz ki, Prezident İlham Əliyevin məqsədyönlü islahatlar kursunun mühüm rolu var. Ümumiyyətlə, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dinamik inkişafını təmin etməklə yanaşı, ölkəmizin qarşısında yeni perspektivlərin açılmasını şərtləndirib. Bu, Azərbaycanın qüdrətinin daha da artmasını təmin edən mühüm amil olaraq qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir. Bu istiqamətdə isə kadr reformaları böyük əhəmiyyət daşıyır.

Kadr islahatlarının məqsədi, şübhəsiz ki, idarəetmədə səmərəliliyin artırılması, ölkənin inkişafı naminə yenilikçi və təşəbbüskar qüvvələrin enerjisindən - potensialından istifadənin təmin olunmasıdır. Amma bununla yanaşı, bəzi kadrların özünü, ona olan etimadı doğrultmaması hallarına da rast gəlinir. Dövlət başçısı bəhs olunan müsahibəsində bu məqamlara toxunaraq **"Əfsuslar olsun, bəzi hallarda kadr dəyişikliyi vəziyyətin müsbətə doğru dəyişməsinə aparmır. Çünki yeni kadr təyin edilir, müəyyən müddət ərzində özünü verilmiş təlimatlara uyğun aparır, amma sonra vaxt keçdikcə, necə deyərlər, köhnə, əyri yola gedir. Ona görə burada cəza tədbirləri ilə yanaşı, kadrların düzgün seçilməsi məsələsi öz rolunu oynamalıdır"**, - deyə bildirib.

Bütövlükdə isə, bu proseslər ictimai rəydə də öz müsbət qiymətini alıb, yəni korrupsiya ilə mübarizə istiqamətində atılan addımlar, mütərəqqi kadr siyasəti - islahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısının bu strateji kursuna yüksək ictimai dəstəyin göstərilməsi, bəhs olunan prosesdə dövlət-vətəndaş birliyinin təmin olunması, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi böyük əhəmiyyət daşıyır və mühüm nəticələr əldə etməyə imkan verir.

Yeni Azərbaycan.- 2022.- 14 yanvar.-S.5.